*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 3 may 2017-ci il № 33 (2150) Qiyməti 25 qəpik


# "Ölkələrimiz arasında hərbi əməkdaşlıq daim inkişaf edir"

## Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimləri keçirilir



*Müdafiə Nazirliyi Mətbuat Xidmətinin verdiyi məlumatda qeyd edildiyi kimi, mayın 1-dən Azərbaycan ilə Türkiyə Silahlı Qüvvələrinin birgə döyüş atışlı taktiki təlimləri başlayıb. Təlimlər hər iki ölkə arasında imzalanmış hərbi əməkdaşlıq haqqında sazişə əsasən keçirilir.*

Qeyd edək ki, qardaş dövlətlər olan Türkiyə ilə Azərbaycan arasında bütün sahələrdə olduğu kimi, hərbi sahədə də sıx münasibətlər mövcuddur. Bu günlərdə ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Jandarma Baş Komandanı ordu generalı Yaşar Güler ilə görüşərkən Müdafiə naziri general-polkovnik Zakir Həsənov da vurğuladı ki, ölkələrimiz arasında hərbi əməkdaşlıq daim inkişaf edir, strateji tərəfdaşlıq və qardaşlıq münasibətlərinə əsaslanır.

Öz növbəsində ordu generalı Y.Güler ölkəmizə səfərindən məmnunluğunu ifadə edib, dövlətlərimizin əlaqələrinin qədim tarixi köklərə, mehriban dostluq ənənələrinə əsaslandığını və Türkiyənin Azərbaycanın vacib tərəfdaşı olduğunu vurğulayıb.

Bir neçə gün öncə manevrlərdə iştirak edən Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyətinin ölkəmizin hərbi hava bazalarından birində təntənəli surətdə qarşılanması da qardaşlığın, dostluğun təzahürüdür. Türkiyəli hərbi qulluqçuları hərbi birliyin zabiti polkovnik Münasib Babayev və Türkiyənin ölkəmizdəki hərbi attaşesi briqada generalı Zafer Öcak qarşılayıb.

Dövlət himnləri səsləndirildikdən sonra Türkiyə hərbi qulluqçuları təlim dövründə yerləşəcəkləri "N" hərbi hissəsinə yola düşüblər.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin hərbi hissənin ərazisində ucaldılmış büstü önünə gül dəstələri qoyulub, Ulu Öndərin və ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Türkiyə nümayəndə heyətinin rəhbəri polkovnik Hakan Açıkgöz birgə təlimlərin vacibliyini vurğulayaraq qeyd edib ki, keçirilən təlimlərdə qazanılan təcrübə hər iki ölkənin gələcək əməliyyat planlarına müsbət təsirini göstərəcək.

Hərbi hissədə, həmçinin, birgə döyüş atışlı taktiki təlimlərdə istifadə olunacaq silahların, hərbi və xüsusi texnika nümunələrinin sərgisi keçirilib. Təcrübəli mütəxəssislər tərəfindən şəxsi heyətə hərbi texnikanın istismarı, tətbiqi, döyüş və digər imkanları barədə məlumatlar çatdırılıb.

Təlimlərin məqsədi Azərbaycan və Türkiyə Silahlı Qüvvələri arasında təcrübə mübadiləsini həyata keçirmək, koordinasiyanı inkişaf etdirmək, qərargahların müştərək planlaşdırmaları, bölmələrin hazırlığı və əməliyyatları icra etmə qabiliyyətini yüksəltməklə iki ölkənin hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinə nail olmaqdır.

Birgə təlimlərdə şəxsi heyət, zirehli texnika, artilleriya qurğuları və minaatanlar, Hərbi Hava Qüvvələrinin döyüş və nəqliyyat helikopterləri, həmçinin, qruplaşmanın havadan mühafizəsi məqsədi ilə müasir müdafiə kompleksləri ilə silahlanmış hava hücumundan müdafiə və zenit-raket bölmələri iştirak edir.

Təlimlərə hazırlıq dövründə türkiyəli hərbçilər üçün bir sıra mədəni-kütləvi tədbirlərin keçirilməsi planlaşdırılıb.

Təlimlər mayın 5-dək davam edəcək.

**"Azərbaycan Ordusu"**

Ön xətdən reportaj

# O yollar yenə də bizim olacaq...

*Baharın gözəlliyi, Qarabağımızın təbiəti bizləri özünə bağlayıb. Yaşıllıqlar dağlara-dərələrə, düzlərə xüsusi gözəllik gətirib. Magistral yol boyu uzanan düzlərdə həmişəkindən fərqli bir görüntü hakimdir. Yamyaşıl otlar arasında baş qaldıran al-əlvan çiçəkləri görüncə bir anlıq ayaq saxlayırsan. İlahi gözəlliyi insanların yaratdığı gözəllik tamamlayır. Dayanıb bu gözəlliyi yaxından izləmək istəsək də, yol bizi alıb aparır.*



Yol müqəddəsdir deyiblər. Həyat yolla başlayır, yolla bitir. Yollar da insanlar kimi Vətən uğrunda döyüşür, vuruşur, qəhrəman olur, müqəddəs savaşlarda qəhrəmanlıq göstərən oğullarımızı, qızlarımızı sinəsində daşıyır. Müqəddəs savaşlarda yaralanır, şəhid olur, bəzən özü də güllə yarası, qəlpə yarası, söz yarası alır. Bir il əvvəl aprel döyüşlərində olduğu kimi. Getdiymiz yollar bizi həmin qəhrəmanlığın ünvanı olan yerlərə aparır.

Yolun sağında aprel şəhidlərinin şərəfinə ucaldılmış abidə diqqətimizi özünə cəlb edir. Tarixi sinəsində yaşadan abidələr həmişə diqqəti özünə çəkir. Şəhid oğullarımızın ruhu qarşısında baş əymək, yaxın keçmişimizin qəhrəmanlarını yad etmək borcumuzdur.

İgidlərimizin şərəfinə ucaldılmış abidə qarşısında xüsusi bir cazibə qüvvəsi, sehirli ab-hava hiss edirəm. Elə bil tarixin nəfəsini duyuram, bu ünsiyyəti heç nə ilə əvəz etmək mümkün deyil. Ətrafda hökmranlıq edən səssizlik, lal sükut insana bütün mətləbləri diktə edir.

Qəhrəmanlarımıza baxıram. Tarixin amansız sınaqları bizləri zəifliyə məhkum edə bilməyib. Əksinə, milli mübarizə ruhumuzu möhkəmləndirib. Babəklər, Cavanşirlər, Mübarizlər, Fəridlər, Çingizlər yurdu daim belə oğullar yetişdirib. Onların keçdiyi yollar hər birimizi mübarizəyə, yollarımıza, göylərimizə qovuşmağa səsləyir.

Dünyaları ruhlarına sığdıran bu oğullar bu darısqal dünyaya sığmır... Onların ruhu hayqırır: düşmən izini torpağımızdan silin, Qələbənin davamını gətirin, Cocuq Mərcanlıdan keçib Şuşaya çatın!..

Aprel döyüşlərinin iştirakçısı zabit Seymur Həbibullahov sükutu pozur: "Onlar bir ömür yaşadılar, gözəlliklər yaradan çiçəklər kimi. Ancaq elə bil ki, təbiətin qanunlarına üsyan etdilər, nə saraldılar, nə də soldular. Yaddaşlarda qəhrəman kimi qalacaqlar. Ömürlərinin bahar çağında Vətən uğrunda canlarını qurban verən oğulların ruhu da, sıradakı əsgərlər də yurdumuzun hər yerinin əbədi laləzara çevrilməsinin cəfakeşidi. Məzarları müqəddəs ziyarətgaha çevrilmiş şəhidlərimizin hər dəqiqə, hər an canlarını qurban verdikləri amal, əqidə uğrunda mübarizəni ruh qiyafəsində davam etdirirlər. Şəhidlərimiz zaman-zaman Azərbaycanımızı yadellilərin basqınlarından qoruyaraq tarixin şanlı səhifələrini öz qanları ilə yazıblar."

Gözlərindən gördüklərimi gözümə yığıram. O gözlər deyir ki, bizim abidənin qarşısında kədərlənməyin, inamınızı silah eləyin: torpaqlarımız işğaldan azad ediləcək!

Yol bizi müqəddəsliyə - Cocuq Mərcanlıya doğru aparır, Şuşaya doğru aparır. Yolun sağında "Cocuq Mərcanlıdan Şuşaya" plakatı ruhumuzu titrədir. Bu yazını əsgərlərimizə, hər birimizə verilən müqəddəs əmr, bir neçə dəqiqə əvvəl qarşısında baş əydiyim şəhidlərimizin xahişi hesab edirəm.

Ahmet Kutsi Tecerin yazdığı şeir məni rahat buraxmır:

Orda bir yol var uzaqda
O yol bizim yolumuzdur.
Dönməsək də, varmasaq da,
O yol bizim yolumuzdur.

Bəli, gəldiyimizin davamı o yoldur. Bizi Cocuq Mərcanlıdan Şuşaya və digər torpaqlarımıza bu yol aparacaq. Yol davam edir, hələ ki, Cocuq Mərcanlıdan Şuşaya getməsək də bilirik ki, o yol bizim yolumuzdur. O yol bizi qəribsəyən torpaqlarımıza aparacaq. Yaxın zamanlarda bizi bu yola qovuşduracaq oğullarımızla səngərdə həmsöhbət oluruq.

Leytenant Rəşad Süleymanov bildirir ki, Cocuq Mərcanlının, Lələtəpənin azad olunması ilə, Cocuq Mərcanlıya gedən yolun yenidən qurulması, kənddə yeni infrastrukturun yaradılması hər kəsin arzusu idi. "Bu arzumuz Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə gerçəkləşdi. Bu sərəncamla ümid işığımız daha gur yandı. Qarabağa gedən yolun astanasında olmağımıza daha heç bir şübhə qalmadı."

Əsgərlərdən biri leytenantın fikrinin təsdiqi kimi qeyd etdi ki, bir il əvvəl polad biləkli igidlərimiz gedə bilmədiyimiz, görə bilmədiyimiz kəndin yolunu açdı. "Oğullar Lələtəpə zirvəsini fəth edib Cocuq Mərcanlı kəndini də azadlığa qovuşdurdular, bu yolda canlarını fəda etməkdən çəkinmədilər."

- Ordumuzun uğurunu xalqımız çoxdan gözləyirdi, - deyə əsgər Elton Salahov söhbətə başlayır. - Bu gün bizdə ruh yüksəkliyi, döyüş əzmkarlığı, qələbə niyyəti var. Şəhidlərimizə görə kədərlənirik. Amma şəhidsiz Vətən olmur. Mənim də ən böyük arzum torpaqlarımızın işğaldan azad edilməsində iştirak etməkdir. Bu yolda şəhidliyi özümə ucalıq bilirəm.

Gəldiyimiz yolla geri qayıdırıq. Fikrim əsgərlərin yanında, xəyalım Qarabağa gedən yoldadır. Ümidlərimizi, istəklərimizi Cocuq Mərcanlıdan da o yana səsləyən yoldadır. Tezliklə bu yolun yolçuları olacağıq!..

**Kapitan
Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu",
foto
çavuş
Namiq PƏNAHOVUNDUR**

# Nümunəvi taqım komandiri

*Zabit çətin, məsuliyyətli peşə olsa da, şərəflidir. Əslində, bu peşəni qiymətləndirən mühüm cəhət onun Vətəni qorumaq sənəti olmasındadır. Zabit peşəsini hər bir gənc öz ürəyinin səsi ilə seçməli və onun çətinliklərinə hər addımda hazır olmalıdır. Ömrünü şərəfli zabit peşəsinə həsr etmiş bacarıqlı hərbçilərimizdən biri - baş leytenant Nurlan Məmmədov haqqında söhbət açacağam.*

1990-cı ildə Bakı şəhərində dünyaya göz açmış müsahibim hələ erkən yaşlarından hərbi peşəni seçməyə qərar vermişdi. Orta təhsil illərində əlaçı oxumağı, arzu və düşüncələri ilə sinif yoldaşlarından fərqlənən yeniyetmə 2005-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olur. 3 ildən sonra qəbul imtahanlarını uğurla verərək Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində "motoatıcı" ixtisası üzrə təhsilini davam etdirir. Bacarıqlı zabit olacağına söz verən gənc bölmənin nümunəvi kursantlarından biri oldu, hərb peşəsinin nəzəri və praktiki sirlərini dərindən öyrəndi və 2013-cü ildə cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsinə taqım komandiri vəzifəsinə təyin olundu.

O, hərbi hissənin nümunəvi və bacarıqlı zabitlərindəndir. Onun xidmətdə qazandığı uğurları həm doğma kollektivinə, həm də valideynlərinə baş ucalığı gətirir.

Tabeliyindəkilərə qarşı tələbkar və qayğıkeş olan zabitimiz bildirdi ki, hər bir zabit şəxsi heyətin təlim-tərbiyəsində müasir metod və üsullardan istifadə etməlidir. - Azərbaycan əsgəri adını şərəflə daşıyan gənclərimiz hərbi xidmət dövründə döyüş vərdişləri qazanmaqla Vətənimizin etibarlı döyüşçüləri kimi yetişirlər. Orduda komandirlərin də əsas vəzifəsi əsgərlərimizi peşəkar döyüşçü kimi hazırlamaqdır, - deyən taqım komandirinə görə, əsgərə göstərilən diqqət və qayğı onu nümunəvi xidmət etməyə ruhlandıran əsas amillərdəndir.

Şübhəsiz ki, ön xətdə çətin şəraitdə Vətənə övlad borcunu yerinə yetirən əsgərin bacarıqlı döyüşçü kimi formalaşmasının əsas məsuliyyəti komandir heyətinin üzərinə düşür. Komandir əsgərin güvənc yeridir. Əsgər hər addımda komandirinə inanmalıdır. Əslində, bu mövqelərdə döyüş tapşırığını yerinə yetirmək vəzifəsi komandirlə əsgəri bir amal ətrafında birləşdirir - Vətəni qorumaq, müdafiə etmək və işğaldakı torpaqlarımızı azad etmək. Bu amal əsgərlə komandir arasında qardaş, sirdaş, ən əsası komandir-əsgər dostluğunun əsasını qoyur. Elə zabit Nurlan Məmmədov da şəxsi heyətlə bu cür münasibətlər yaradır. "Çalışıram ki, hər bir əsgər ürəyindəkiləri məndən gizli saxlamasın. Problemi olan əsgərlə fərdi söhbət apararam, birlikdə müzakirə edirik. Belə munasibət şəxsi heyətdə inam və etibar hisslərini gücləndirir".

Gənc zabitlə söhbətim maraqlı alındı. Bir hərbçi kimi onda gördüyüm yüksək vətənpərvərlik, tutduğu yolun gələ-



cəyinə, ən əsası isə qələbəmizə inam hissləri ürəyimi sevinclə, qürurla doldurdu. O, hər an döyüşə hazır olduğunu, Ali Baş Komandanımızın torpaqlarımızın işğaldan azad olunması əmrini səbirsizliklə gözlədiyini bildirdi. Hər sahədə, döyüşçülərimizin ruh yüksəkliyi baxımından da düşməndən qat-qat üstün olduğumuzu, aprel döyüşlərində ordumuzun qazandığı uğurla fəxr etdiyini dönə-dönə vurğuladı. Zabitə görə, mənfur düşmənin özü də artıq üstünlüyümüzə bələddir və hər zaman vahimə, qorxu içərisindədir.

Zabit Rəşad Gülməmmədovun da tələbkar komandir haqqında fikirlərini qeyd etmək yerinə düşərdi. O, söhbətimizdə bildirdi ki, baş leytenant Nurlan Məmmədovun nümunəvi xidməti digər hərbi qulluqçularımıza layiqli örnəkdir. "Bu gün Azərbaycan Ordusunun qarşısında ən mühüm vəzifə - torpaqlarımızın düşməndən azad edilməsi vəzifəsi dayanır. Bu vəzifə hər birimizdən məsuliyyətli, vətənpərvər olmağı tələb edir. Zabit Nurlan Məmmədov da tabeliyindəkiləri vətənpərvər bir döyüşçü kimi formalaşdırır. İnanıram ki, o tabeliyindəkilərlə birgə döyüş meydanında yalnız uğurlara nail olacaqdır. "

Ömrünü xalqa, Vətənə bağlayan hər bir hərbçi yaxşı bilir ki, həyatı Vətənlə yaşamaq gözəldir. Biz də zabitimizə "Vətən sizin kimi oğulları ilə fəxr edir", - deyərək, seçdiyi şərəfli hərbçi həyatında ona uğurlar arzulayırıq.

**Baş leytenant
Məhəmməd NƏSİRLİ,
"Azərbaycan Ordusu"**



# Media nümayəndələri Azərbaycan-Türkiyə birgə təlimlərini izləyiblər

Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən, mayın 1-dən 5-dək keçirilən Silahlı Qüvvələrin birgə təlimlərini işıqlandırmaq məqsədilə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığı ilə mayın 2-də kütləvi informasiya vasitələrinin nümayəndələri üçün taktiki təlim mərkəzinə səfər təşkil edilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimlərə cəlb edilən şəxsi heyət və hərbi texnika ilə tanış olan jurnalistlər yerinə yetirilən tapşırıqların icrasını canlı olaraq müşahidə məntəqəsindən izləyiblər.



# Cəbhə bölgəsi - cəsurların məskəni

*Baharın yurdumuza qədəm qoyduğu ilk günlərdə səfərimizin ünvanı ön xətdə yerləşən "N" hərbi hissəsidir. Bu hərbi hissə Azərbaycanımızın ən gözəl guşələrindən birindədir. Lap qədimdən bu yerlər özünəxas mədəniyyəti, məşhur şairləri, sənət adamları ilə tanınıb. 1992-1993-cü illərdə bu rayonun camaatı torpaq uğrunda döyüşlərdə göstərdikləri qəhrəmanlıq nümunələrinə görə də diqqət çəkib.*

Bizi müşayiət edən zabit Vüqar Əliyevlə dağların zirvəsində məskən salan, isti-soyuq bilmədən istənilən hava şəraitində xidmət edən əsgərlərimizin Vətənin keşiyində qürurla dayandıqları döyüş postuna çatırıq. Post başçısı kiçik çavuş Pərvin İsgəndərovla görüşürük. İlk tanışlığım da Pərvinlə başladı.

Kiçik çavuş Pərvin İsgəndərov 2012-ci ilin iyulunda həqiqi hərbi xidmətə yollanıb. Əsgəri xidmətini başa vurduqdan sonra, 2014-cü ildə yenidən ordu sıralarına qayıtmaq qərarına gəlib. 2015-ci ildən bu hərbi hissədə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət edir.

"Hərb peşəsi çətin peşədir. Niyə məhz bu peşəni seçdin?" sualına Pərvinin verdiyi cavab məni bir qədər kədərləndirdi, həm də qürurlandırdı. Hələ dünyaya gəlmədən taleyim Vətənimə bağlandı. Atam Tərtər istiqamətində gedən döyüşlərdə şəhid olub. Mən hələ onda dünyaya göz açmamışdım. Həmişə anam atamın döyüşlərdə göstərdiyi qəhrəmanlıqlardan danışır, onun Vətən uğrunda şəhid olduğunu deyirdi. Buna görə də Vətənə, xalqa məhəbbət, düşmənə nifrət hissi ilə böyümüşəm. Ali Baş Komandanımızın "İrəli" əmrini mən də səbirsizliklə gözləyirəm. Təkcə atamın yox, onun simasında bütün şəhidlərimizin qisasını almağa hazıram".

- Ailənin yeganə övladı olmasına baxmayaraq, döyüş postunda xidmət etmək üçün dəfələrlə komandanlığa raport yazıb, - deyə şəxsi heyətin mənəvi-psixoloji hazırlığına cavabdeh zabit kapitan Rəşad Gülməmmədov söhbətimizə qoşuldu. - Əslində, yeganə övlad kimi Pərvin bütün imtiyazlara malikdir. Amma buna baxmayaraq, o, atasının şəhidliyindən qürurlanaraq hərbçi olmağı qətiləşdirib.

Kapitan Rəşad Gülməmmədovun 3 yaxın qohumu şəhid olub. O vaxtlar onun 15 yaşı vardı. O yaşlarda həmin hadisələri dərk edən şəxs tək bir amal haqqında düşünə bilərdi - Vətəni dar gündə qorumaq, onun keşiyində dayanmaq. Elə buna görə də çətin, amma şərəfli zabit peşəsini seçdi. Əvvəlcə sülhməramlı qüvvələrdə xidmət edən zabitimiz xidməti zərurətlə əlaqədar - Əfqanıstan, İraq və Kosovoda olub. Sonradan ön cəbhədə müxtəlif vəzifələrdə xidmətini davam etdirib, həmişə şəxsi heyətə tələbkar və qayğıkeş olub.



Zabitlə birlikdə döyüş növbətçiliyində duran əsgərlərimizin yanına getdik. Düşmən mövqelərini müşahidə edən əsgərlərdən İsa Bayramov və Tərlan Bahadurovla görüşdük. Ordu sıralarından tərxis olunmasına bir neçə gün qalan Tərlan Bahadurov son döyüş növbətçiliyini həyata keçirirdi.

Ziyalı ailəsində anadan olmuş Tərlan 2015-ci ilin oktyabrından hərbi xidmətdədir. Ali təhsillidir, Azərbaycan Ordusunun əsgəri olmasıyla qürur duyur. "Tarixi vərəqlədikcə ermənilərin zaman-zaman xalqımızın başına açdığı müsibətlər yaddaşımızın qaysağını qoparır. Ordumuz dünyanın güclü orduları sırasındadır. Biz heç nədən qorxmuruq. Torpaqlarımızı nə yolla olursa-olsun, düşməndən azad edəcəyik. Ordudan tərxis olunsam da, Vətənimizin dar günündə onu müdafiə edənlərin arasında olacam. Qanım və canım bahasına."

Digər əsgərlər - Elxan Həmidli, Fərid Ağayev, Azər Əliyev, Vəfalı Səfərov da Tərlanın sözünü təsdiqlədilər və hamısı bir ağızdan "Ali Baş Komandanımızın əmri ilə torpaqlarımızı azad etməyə hazırıq" dedilər.

Artıq axşam düşür, geri qayıtmalıyıq. Bütün əsgərlərimizə uğurlar arzulayıb, yola düşürük. Kənddən keçəndə uzaqda üçrəngli bayrağımızın dalğalandığı bir ev diqqətimi çəkdi. Bizi müşayiət edən zabitimizdən "Ora kimin evidir?" - soruşdum. Aprel döyüşlərində şəhid olan zabitimiz M.Orucovun ünvanı olduğunu öyrəndim. Bir anlıq həmin evin yanında dayandıq. Qapını şəhidimizin əmisi Musa kişi açdı. Valideynləri evdə olmasa da, qohumları və qonşularıyla şəhidimiz haqqında söhbət etdik. Vaxt tapıb şəhidin məzarını da ziyarət etdik.

İnanıram ki, şəhidlərimizin məzarları üstündə dalğalanan üçrəngli bayrağımız çox keçməyəcək qüdrətli ordumuzun gücü ilə işğaldan azad ediləcək hər bir rayonumuzda dalğalanacaq. Bir daha Allahdan Vətənin azadlığı uğrunda canlarını qurban verən bütün şəhidlərimizə rəhmət diləyirik.

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu"**

# Naxçıvanda tibb işçiləri ilə təlim keçirilib

Əlahiddə Ümumqoşun Ordunun müxtəlif güc strukturları ilə birgə komanda-qərargah təlimi keçirilib. Təlim çərçivəsində qoşunların döyüşə hazırlığının yoxlanılması məqsədi ilə birləşmə və hissələr "Həyəcan" siqnalı ilə cəmləşmə rayonlarına çıxarılıb və qoşunların idarə olunması praktiki həyata keçirilib.

Təlim planında Naxçıvan Muxtar Respublikasına qarşı yönəlmiş silahlı hücumun dəf edilməsi məqsədilə müdafiə əməliyyatının aparılması, bu zaman müxtəlif güc strukturlarının birgə fəaliyyətinin planlaşdırılması və təşkili, düşmənin darmadağın edilməsi və müdafiənin əlverişli hədd üzrə bərpa olunması əsas məqsəd kimi qarşıya qoyulub.

Döyüş tapşırıqlarının daha operativ və səmərəli yerinə yetirilməsinə, qərargahlar tərəfindən əməliyyat planlarının hazırlanmasına, mürəkkəb əməliyyat şəraitində qoşunların döyüş fəaliyyətlərinin idarə edilməsinə, qarşılıqlı fəaliyyətin və təminatın təşkilinə xüsusi diqqət yetirilib.

Təlimə cəlb edilmiş birləşmə və hissələr səhra şəraitində hərtərəfli təminatla təmin edilib.

Hərbi səhra hospitalı da şəxsi heyət və texnikalarla tam komplektləşdirilib. Belə ki, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Əlahiddə Ümumqoşun Ordunun birgə fəaliyyəti ilə tibb müəssisələrindən hərbi vəzifəli şəxslərin və təcili tibbi yardım maşınlarının səfərbərlik üzrə toplanması və təyinatı üzrə bölüşdürülməsi həyata keçirilib.

Təlimin gedişi barədə general-mayor Ayaz Həsənov məruzə edib. Naxçıvan Muxtar Respublikasının Səhiyyə naziri Niyazi Novruzov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi general-mayor Səxavət Salmanov, Azərbaycan Respublikası Müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev səfərbərlik üzrə tibb müəssisələrindən təlimə cəlb edilmiş hərbi vəzifəlilərlə görüşərək keçirilən tədbirin əhəmiyyətindən danışıblar.

Tapşırıqların yüksək peşəkarlıqla yerinə yetirilməsi nəticəsində komanda-qərargah təlimi uğurla başa çatıb, qarşıya qoyulan bütün məqsədlərə tam nail olunub.

**Leytenant**
**Nəriman NƏCƏFOV**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***2 may 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 millimetrlik minaatanlardan (3 mərmi) da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 110 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar, Vazaşen kəndlərində, Noyemberyan rayonunun Şavarşavan kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Bala Cəfərli, Quşçu Ayrım kəndlərində, Berd rayonunun Mosesqex, Çinari kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağdam, Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Yarımca, Ağdam rayonunun Qaraqaşlı, Mərzili, Cəvahirli, Baş Qərvənd, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qorqan, Qaraxanbəyli, Horadiz, Aşağı Veysəlli, Aşağı Seyidəhmədli və Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

AZƏRBAYCAN ORDUSU

# Hospitalda elmi-praktik konfrans



Mayın 2-də Silahlı Qüvvələrin Baş Klinik Hospitalında "İnsan genetikasına müasir yanaşma" mövzusunda elmi-praktik konfrans keçirildi.

Konfransı giriş sözü ilə açan hospitalın rəisi tibb xidməti polkovnik-leytenantı Tofiq Tağıyev insan genetikasının araşdırılması üzrə dünyanın aparıcı mütəxəssislərindən biri, Amerika Birləşmiş Ştatlarından gəlmiş Cənubi Kaliforniya Universitetinin akademiki Vladimir Zelmanı tədbir iştirakçılarına təqdim etdi. Konfransda, həmçinin Merilend Universitetinin akademiki Roald Zimnuroviç Saqdeyev, Los-Anceles Universitetinin əməkdaşı Nataliya Pastuşenko, Moskva Dövlət Universitetinin əməkdaşı Elena Petrovna Popova və azərbaycanlı mütəxəssislər iştirak edirdilər.

Çıxış üçün söz alan Vladimir Zelman insan genetikasının formalaşması problemlərinin müxtəlif aspektləri ilə məşğul olan alim və mütəxəssislərin əməkdaşlıq perspektivlərinin müəyyənləşdirilməsi baxımından konfransın əhəmiyyətli olduğunu, bu sahədə mövcud problemlərin həllinə töhfə verəcəyini qeyd etdi. Alim molekulyar biologiya və tibb, molekulyar diaqnostika, tibbi genetika, gen müalicəsi kimi problemlərin araşdırılmasının, tibdə yeni texnologiyaların tətbiqi imkanlarının öyrənilməsinin zəruriliyini vurğuladı. Akademik səhiyyə sisteminin




müasir tələblərə uyğunlaşdırılması, yüksək keyfiyyətli tibbi xidmətlərin göstərilməsi üçün elmdə əldə olunmuş nailiyyətlərin, innovativ texnologiyaların geniş tətbiqinin vacibliyini söylədi. Onun çıxışında genetika sahəsi üzrə sürətli inkişafın təmin olunması üçün tibbi informatika ixtisası üzrə mütəxəssis və elmi kadrların hazırlanması, bu sahəyə dair dərslik və dərs vəsaitlərinin təkmilləşdirilməsi, tibb işçilərinin informatik biliklərinin artırılması istiqamətində davamlı tədbirlərin həyata keçirilməsinin vacibliyi də qeyd edildi.

Konfrans insan genetikası üzrə qarşıda duran hədəflər və digər məsələlərlə bağlı geniş fikir mübadiləsi ilə başa çatdı.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

---

*Gənc zabitlərimiz*

# İgidlərin ömür yolu gənclərimiz üçün əsl həyat məktəbidir



2008-ci ilin bir yay günü mavi Xəzərin qoynunda yerləşən bir ünvana tələsən yeniyetmələr arasında Tərlan da vardı. O da erkən yaşlarından zabit olmağı, Vətən adlı bir ömür yaşamağı qarşısına məqsəd qoymuşdu. Həm də bu marağın əsasında dayısı Muradın tövsiyələri dayanırdı (Azərbaycanın Milli Qəhrəmanı Murad Mirzəyev - A.P.) Tərlan həmişə doğmalarına, yaxınlarına deyib ki, mən də dayımın yolunu davam etdirəcəm.

"Hər dəfə dayım bizə gələndə tez yanına qaçırdım. Çevik, cəsur görkəmi vardı. Əllərimi sıxanda az qala deyərdim ki, asta sıx. Çiynində parıldayan paqonlarına həsədlə baxıb düşünərdim: dayım müqəddəs peşənin sahibidir, çünki Vətənimizi qoruyanlardan biridir. Beləcə illər ötüb keçdi, yeddinci sinifdə oxuyanda dayıma zabit olacağımı dedim. Yaman sevinmişdi, amma demişdi ki, hərbçi olmaq sənə asan gəlməsin, bu peşənin çətinliklərini duymadan zabit ola bilməzsən. Qərarım qəti oldu, valideynlərim də fikrimi öyrənəndə tərəddüd etmədilər..."

Bu sözləri cəbhə xəttindəki hərbi hissələrimizdən birində nümunəvi taqım komandiri olan leytenant Tərlan Salmanov söhbətimizdə dedi. Onunla tanışlığım heç də təsadüf olmadı. Təcrübəli silahdaşım Elnur Həsənovla ön xətdəki bölmələrə yola düşəndə söz verdi ki, məni maraqlı bir həmsöhbətlə tanış edəcək. Qəzetimizdə müntəzəm fəaliyyət göstərən "Gənc zabitlərimiz" rubrikasında yazılar vermək üçün daim axtarışda oluruq, xidmətdə döyüş və mənəvi keyfiyyətləri ilə nümunə göstərilən zabitləri həm tanıyırıq, həm də tanıdırıq. Yadımdadır, keçən il Füzuli bölgəsində bir gənc zabit haqqında yazı vermişdim. Sonra başqa bölgələrdə onu tanıyanlar mənə minnətdarlıq etdilər ki, layiqli bir zabiti tanıtmaqda əsl xeyirxahlıq göstərmisiniz. Biz jurnalistlərin də məramı belədir, Vətənimizə can-başla xidmət edənləri hamıya tanıtmağa çalışırıq.

Leytenant Tərlan Salmanov əvvəlcə sənədlərini C.Naxçıvanski adına Hərbi Liseyə verib, sonra da ulu öndərimiz Heydər Əliyevin adını daşıyan Azərbaycan Ali Hərbi Məktəbini bitirib. Hər iki təhsil müəssisəsində oxuduğu illərdə hərbə hədsiz marağı yaranıb. Təcrübəli, döyüş xidmətləri olan zabitləri əhatəsində görəndə sevinib, onlardan çox şey öyrənməyə çalışıb. Oxuduqları, öyrəndikləri isə onu gələcəyin savadlı, vətənpərvər hərbçisi olmağa ruhlandırıb.

- Hər iki məktəbdə oxuduğum illər ömrümün ən qiymətli hissəsidir, - deyir leytenant. - Adam hər gün nəsə öyrənəndə kamilləşir, dünyagörüşü artır. Zabit peşəsi isə daha çox öyrənməyi, çalışqan olmağı tələb edir. Bir hərbi müəllimimiz vardı, həmişə deyirdi ki, tabeliyindəki əsgərlərin qarşısına çıxan zabit bütün keyfiyyətləri ilə - həm savadı, həm davranışı, həm də dünyagörüşü ilə nümunə olmalıdır. Daim Ümummilli Liderimizin ömür yolu, Vətən, xalq qarşısında böyük xidmətləri bizə təbliğ olunurdu. Dahi rəhbərin irsini dərindən öyrənirdik, indi də öyrənirik. Bilirik ki, tərincə çevik, cəsur olmağın vacibliyini mənə təmkinlə aşıladı. Və həmin gündən sonra bir daha fiziki məşğələlərdə geriliyim olmadı. Ümumiyyətlə, nə çətinliyim olurdusa, Murad dayım mənə diqqətini, köməyini əsirgəmirdi. Bu gün taqım komandiri kimi xidmətə başla-



onun tövsiyələrinə əməl etməklə gələcəyin bacarıqlı, üzağardan peşə sahibləri olacağıq.

Leytenant bir anlıq xəyala dalıb Milli Qəhrəmanla bağlı xatirələrini yenidən çözələyir. "Heç yadımdan çıxmır, bir dəfə fiziki hazırlıqdan göstəricim zəif olmuşdu. İstirahət günü axşam dayım bizə gəldi, mənimlə də təklikdə söhbət etdi. Dedi ki, əsl zabit olmağı qarşısına məqsəd qoyan gənc bütün xüsusiyyətlərinə görə həyatda liderliyi bacarmalıdır. Çətin, mürəkkəb təbii şəraitdə qarşıya qoyulan döyüş tapşırığını yerinə yetirmək üçün yedığım qısa müddətdə onun tövsiyələrinin nə qədər vacib, gərəkli olduğunu hiss edirəm. Ömrüm boyu özümə ideal bildiyim bu nəcib insanla bağlı xatirələrim tükənən deyil."

2015-ci ilin iyun ayı. Qızmar yay günüdür. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin əzəmətli idman meydanında qələbəlikdir. Həmin gün doğma məktəb öz məzunlarını yola salırdı. Çiyinlərində zabit paqonu par-par parıldayan gənclər arasında Şirvan şəhər sakini leytenant Tərlan Babək oğlu Salmanov da vardı. Çoxları onu təbrik edirdi, amma polkovnik-leytenant Murad Mirzəyevin də səsini eşitmək arzusundaydı. Həmin axşam hardansa zəng edib gənc zabitlə ürəyindən keçən ən xoş arzularını bölüşür.

- Kitablardan oxumuşam, filmlərdən öyrənmişəm ki, həyatında uğur qazanmaq üçün gərək özünə ideal seçəsən, - deyə müsahibim yenə də Milli Qəhrəmanla bağlı xatirələrindən danışır. - Onun ailəsi də əsl hərbçi ailəsi idi. Həyat yoldaşı dərindən başa düşürdü ki, Murad Vətən üçün ömür yaşayır, onun əqidəsi, amalı Vətənidir, xalqıdır, dövlətidir. Günlərlə, həftələrlə, aylarla uşaqları onu görməzdi. Amma ömür-gün yoldaşı balacaları da Murada layiq böyüdürdü, tərbiyə edirdi. Həyat yoldaşı həmişə deyirdi ki, Murad böyük, müqəddəs bir yolun yolçusudur.

Doğru deyirsən, leytenant, elə bu yol da onu ən uca zirvəyə - şəhidliyə apardı. Bu gün Murad Mirzəyevlə təkcə ailəsi, doğmaları deyil, bütün Azərbaycan xalqı fəxr edir, öyünür. Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev dəfələrlə çıxışlarında ordumuzun əsgər və zabitlərinin vətənpərvərliyini yüksək qiymətləndirir, Vətən uğrunda fədakarlıq göstərən hərbi qulluqçulara önəm verir.

Bu gün cəbhə xəttində yerləşən hərbi bölmələrimizdən birinin kollektivinə leytenant Tərlan Səmədovun da adı tanışdır. Çünki qısa vaxt ərzində özünü savadlı, tələbkar, bir sözlə, hazırlıqlı zabit kimi tanıdıb. O bu gün qarşısına bir məqsəd qoyub: Vətənimizin ərazi bütövlüyü uğrunda mübarizədə hər cür fədakarlığa hazır olmaq və özünə ideal bildiyi qəhrəmanın etimadını doğrultmaq. Azərbaycan Ordusunun əfsanəvi döyüşçüsü, şəhid polkovnik-leytenant, Milli Qəhrəman Murad Mirzəyevin adına layiq zabit olmaq, həqiqətən də, son dərəcə məsuliyyət və böyük şərəfdir. İnanıram ki, Tərlan bu şərəfi doğruldacaq!

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Coşqun CƏFƏROVUNDUR**



# Nəsillərə nümunə ömür

*Kosmik Uçuşlar üzrə SSRİ Dövlət Komissiyasının sədri, Sosialist Əməyi Qəhrəmanı, Dövlət və Lenin mükafatları laureatı, Azərbaycan Milli Elmlər Akademiyasının fəxri üzvü olmuş Kərim Abbasəli oğlu Kərimovun adı Azərbaycan xalqına yaxşı tanışdır. Onun anadan olmasının 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncama əsasən, bu günlərdə Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında elmi-praktik konfrans keçirildi. Gənclər və İdman Nazirliyinin, Milli Aerokosmik Agentliyinin nümayəndələri, veteranlar, ziyalılar, xüsusi təyinatlı hərbi məktəblərin kursantları tədbirdə iştirak edirdilər.*

Öncə ümummilli lider Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbiri açıq elan edən Respublika Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov bildirdi ki, xalqımızın görkəmli şəxsiyyətlərindən biri general-leytenant Kərim Kərimov 14 noyabr 1917-ci ildə Bakının Pirşağı qəsəbəsində neftçi ailəsində anadan olub. "Hələ orta təhsil dövründən radiotexnikaya maraq göstərən Kərim Kərimov 1936-cı ildə Azərbaycan Sənaye İnstitutuna daxil olur və oranı elektromexanik kimi bitirir. Onun ideyaları hərbi mühəndisləri maraqlandırırdı. Artıq bu dövrdə İkinci Dünya müharibəsi gedirdi. Gənc mütəxəssisin istedadı nəzərə alınaraq 1942-ci ildə ona Dzerjinski adına Artilleriya Akademiyasına daxil olmaq üçün göndəriş verilir. Maraqlıdır ki, bilikləri yoxlanıldıqdan sonra Kərim Kərimov birbaşa akademiyanın yuxarı kursuna qəbul olunur. 1943-cü ildə bu təhsil müəssisəsini topçu-mühəndis ixtisası üzrə başa çatdıran Kərim Kərimov "Katyuşa" adı ilə tanınan yaylım atəş qurğusu üzrə mütəxəssis kimi tanınır. Öz işinə can yandıran, silahın təkmilləşdirilməsi sahəsində bir neçə dəyərli təklif irəli sürən Kərim Kərimov həmin vaxtdan hərb elminin inkişafı naminə əməyini əsirgəmir."



Natiq çıxışında Kərim Kərimovun keçmiş SSRİ və Azərbaycan elminə verdiyi töhfələrdən, xüsusən aerokosmik sahənin inkişafında müstəsna xidmətlərindən danışdı: "Kərim Kərimov Baykonur kosmodromunun əsası qoyulan gündən Kosmik Gəmilər üzrə Dövlət Komissiyasının tərkibinə daxil edildi. SSRİ-də kosmonavtikanın inkişafında onun da rolu az olmayıb.

O dövrdə Sovet kosmonavtikasının fəxri sayılan alim-mühəndis "Soyuz" kosmik gəmiləri, "Salyut" orbital stansiyası, sonradan isə çoxmodullu "Mir" stansiyasının yaradılmasına böyük töhfə verir. Həmyerlimiz olan general bir çox azərbaycanlı alimin də bu sahədə fəaliyyəti üçün şərait yaradır."

Ehtiyatda olan polkovnik çıxışını ümummilli lider Heydər Əliyevin 15 il əvvəl alimin haqqında dediyi təbrik sözləri ilə bitirdi: "Sizin əməyiniz istər dövlət, istərsə də kosmik elm və texnikanın görkəmli nümayəndələri tərəfindən yüksək qiymətləndirilmişdir. Sizin topladığınız təcrübə və hərtərəfli biliklər ölkəmizdə kosmik tədqiqatların inkişafına, şübhəsiz, töhfəsini verəcəkdir."



Sonra Milli Aerokosmik Agentliyinin baş direktorunun birinci müavini, texnika elmləri doktoru Tofiq Süleymanov, texnika elmləri doktoru Fəxrəddin Ağayev və ehtiyatda olan polkovnik Oktay Əhmədov da xatirələrini bölüşərək alimin kosmonavtika elminə töhfələrindən danışdılar, onun əməyinin dövlətimiz tərəfindən yüksək qiymətləndirildiyini bildirdilər.

Tədbirin sonunda xalq artisti Vasif Babayevin Kərim Kərimovdan bəhs edən sənədli filmi nümayiş olundu.

**Leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu"**

## Silahlı Qüvvələrdə ağacəkmə və yaşıllaşdırma tədbirləri məqsədilə iməcilik təşkil olunacaq

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü və faşizm üzərində qələbənin 72-ci ildönümü münasibətilə Əlahiddə Ümumqoşun Ordusunda, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrinin ərazilərində mayın 6-da iməcilik təşkil olunacaq.

Ərazidə ekoloji mühitin sağlamlaşdırılması və abadlaşdırılması məqsədilə təşkil olunacaq iməcilik zamanı hərbi şəhərciklərdə, eləcə də digər hərbi hissələr, inzibati, xidməti bina və obyektlərin ətrafında müxtəlif növ ağaclar, gül kollarının əkilməsi və yaşıllıq zolaqları salınması nəzərdə tutulur.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

*Ovqat*

## "Yenə hərbi xidmətdəyəm!.."

*Bu ilin aprelində ötən ilin aprelinin ovqatını yaşadanlardan biriylə görüşəcəkdim. Görüşdük. O xoş anlar ürəyimi telləndirdi, ruhumun sığalına döndü...*

2016-cı ilin aprel döyüşləri tarixdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu döyüşlərin tarixi əhəmiyyəti haqqında deyib: "Aprel döyüşləri bizim şanlı tarixi qələbəmizdir", "Aprel döyüşləri dərsliklərə salınmalıdır". Bu kəlamlar Azərbaycanı Böyük Qələbəyə kökləyib...

Aprel döyüşlərinin iştirakçılarıyla kəlmələşmək mənə həmişə mahiyyəti qürur olan könül xoşluğu verib. "Lələtəpə", "Bayraqtəpə" kitablarımın davamı bilmişəm...

Polkovnik-leytenant Eldəniz Sadıqovla bu ovqatı yenidən yaşayırıq. Düşüncələrimizin məhvəri 2016-cı ilin aprel döyüşləridi. Azərbaycan əsgərinin tarix yazdığı döyüşlər, tarixləşdirdiyi döyüşlər...

Müharibənin nə olduğunu yeniyetməliyində, gəncliyinin ilk çağlarında Tovuz rayonunun Əsrik-Cırdıxan kəndində duyan, görən, yaşayan, torpaqlarımız işğal edildə yumruqları düyünlənən, qəzəbi kükrəyən gənclərdən biri kimi hərbçi olmağı qərara alıb. Qərarı 1993-



cü ildə gerçəkləşib...

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alıb. Bir gün eşidib ki, ermənilərin atdığı mərmilərdən biri evlərinə düşüb. Atası Gülməmməd yaralanıb. Kursant Eldəniz Sadıqov leytenant Eldəniz Sadıqov olacağı günün tezləşməsini qədərsiz intizarla gözləyib...

Zabit kimi müxtəlif hərbi hissələrdə xidmət edib.

Və 2016-cı ilin aprel döyüşləri...

...Kəşfiyyat məlumatlarını təhlil etdilər. Dəqiqləşdirdilər ki, düşmən cəbhə-müdafiə xəttini taktiki qruplarla yarmaq niyyətindədi. Müdafiəni gücləndirdilər. Müşahidələrin şəbəkəsini genişləndirdilər. Gecəgöstərmə cihazlarının köməyi ilə müəyyənləşdirdilər ki, düşmən Tapqaraqoyunlu istiqamətindən, həm də tanklarla hücuma keçmək niyyətindədi.

Tanklarımızı münasib ərazilərdə, ehtiyat bölmədə yerləşdirdilər ki, ehtiyac duyulan mövqelərə operativ göndərmək mümkün olsun...

Döyüş əmri verildi...

Keçid açılmalıydı. Düşmənin mövqelərini minaatanlardan atəşə tutdular...

Talış kəndi istiqamətində hücuma keçdilər...

Komandirlər əsgərlərin döyüş əzmini, qələbə istəyini aydınlığıyla sezirdi...

Döyüş Gün yaxana kimi davam etdi. Zabitlər də, əsgərlər də mərdliklə döyüşürdü. Son vaxtlar atəşkəsi pozan, tutarlı cavab alsa da, yenidən həmləyə keçmək istəyən düşməni bu həndəvərlərdən uzaqlaşdırmaq, torpaqlarımızı işğaldan azad etmək üçün vuruşurdu...

Azərbaycan əsgərinin qətiyyəti düşməni güllə-güllə geri çəkilməyə məcbur edirdi. Bu döyüş vətənpərvərliklə işğalın döyüşüydü. Gün yaxandan az sonra düşmən davam gətirə bilmədi, geri çəkildi - qaçdı...

Polkovnik-leytenant Eldəniz Sadıqovun əmriylə ehtimal olunan təhlükələri qabaqlamaq məqsədi ilə postlara baxış keçirildi. Düşmən postlarında xeyli hərbi sursat - bir AQS, bir neçə binokl, postların yaxınlığında bir ZİL, bir QAZ-53 avtomaşını qalmışdı...

Alınmış postlarda möhkəmləndilər. Şəhərə yaxın düşmən bu mövqelərə hücum etdi. Bu əhəmiyyətli mövqeləri saxlamaq, döyüşlərin gedişinə təsir göstərmək istəyirdi. Düşmənin gözlənilən gözlənilməz hücumunu da mərdliklə dəf etdilər. 70-ə yaxın düşmənin irəliləməsinə imkan vermədilər. İki döyüşçümüz yaralandı...

Eldəniz Sadıqov da atışırdı. Qəflətən hiss etdi ki, bir qədər aralıda kimsə yaralandı. Atışa-atışa ora yaxınlaşdı. Yaralını təhlükəsiz yerə çəkib yenidən atışmaq üçün mövqe tutdu. Düşmən xeyli itki verərək geri çəkildi...

Aprel döyüşlərinin üçüncü günüydü. Xeyli ərazi düşməndən təmizlənmişdi. Düşmən gözləmədikləri məqamda hücum edə bilərdi. Belə bir gərginlik işində əlavə səngərlər qazılırdı. Eldəniz qəflətən minaya düşdü. Sağ ayağını pəncədən aşağı, sol ayağının dabanını itirdi...

Polkovnik-leytenant Eldəniz Sadıqov müalicə olundu. Hərbi xidmətini davam etdirir. Aprel döyüşlərinin ildönümünə həsr olunmuş tədbirdə görüşmüşdük. Qürurla yenə xidmətdə olduğunu dedi. Bu qüruru Azərbaycan Ordusunun zabitlərinin də, əsgərlərinin də yüksək döyüş, mənəvi-psixoloji hazırlığa malik olduğunu deyən, bu kəlmələrin sevincini yaşayan polkovnik-leytenant Eldəniz Sadıqovun iki qızı, bir oğlu da yaşayır. Həm də dönməz sevinclə yaşayır: atamız aprel döyüşlərində iştirak edib! Atamız yenə hərbi xidmətdədi!..

**Rəşid HÜSEYNOV,
"Azərbaycan Ordusu"**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

**Suallar:**

**1. Əsgər olmaq bir şərəfdir.**

**2. Əsgərin fərdi-psixoloji xüsusiyyətləri və hərbi xidmətə sosial-psixoloji adaptasiya olunması.**

**3. Orduda döyüşçünün formalaşması.**

**Mövzu:** Əsgərin hərbi xidmətə sosial-psixoloji adaptasiya olunması.

*Əsgər olmaq bir şərəfdir*

İctimai-siyasi hazırlıq dərslərində keçirilən əvvəlki mövzulardan görünür ki, Azərbaycan xalqının tariximizdə yaratdığı yüksək dəyərlər içərisində qəhrəmanlıq xüsusi yer tutur. Qəhrəmanlıq idealı ilə yaşayan xalqımızın tarixini əks etdirən dastanları da buna kifayət qədər nümunə göstərmək olar. Bu dastanların qəhrəmanları mərd, qorxmaz, cəsur və mübarizdirlər. Qəhrəman heç şeydən çəkinməməli, ölümdən belə qorxmayaraq özünün, tayfasının, yaxud qəbiləsinin intiqamını almalı idi. Bu əxlaqa görə torpağını, yurd-yuvasını yağmalayan düşməndən qisas almamaq böyük şərəfsizlik sayılırdı. Çox vaxt müharibələr namus, şərəf müharibələrinə çevrilir, ölümdən qorxub geri çəkilən, intiqam almayan adam isə şərəfsiz, namussuz hesab olunardı. Ata-ana belə oğul üçün xəcalət çəkərdi. Qızlar bu cür cəsarətsiz oğlana ərə getməzdilər. "Dədə Qorqud" dastanlarında bu cür şərəfli qəhrəmanlıq səhifələri çoxdur. Dastanda Qazan xan qız kimi böyüyən, ömründə bir heyvan başı olsa belə kəsməyən oğluna görə xəcalət hissi çəkir, nəhayət, igidləri və oğlunu başına yığıb ov ovlamağa gedir. Bu zaman düşmən onun el-obasını yağmalayıb apararkən Qaraca çoban bu həqarətə dözməyərək Qazan xanın düşmənlərinə qarşı təkbaşına döyüşür.

"Koroğlu" dastanında qəhrəmanlıq, cəsarət, yenilməzlik motivləri daha real xarakter daşıyaraq həyati məna kəsb edir. Çox maraqlıdır ki, dastandakı qəhrəmanların apardığı mübarizə, hər şeydən əvvəl azadlıq mübarizəsi idi. "Koroğlu" dastanında təsvir olunmuş mübarizə, onun ətrafına toplaşmış igidlərin qəhrəmanlıq, cəsarət nümunələri bugünkü ordu prinsiplərinə tam uyğun gəlir.

Bu gün Azərbaycan Ordusunda xidmət edən əsgərlərimiz belə bir şərəfli tarixə söykənir. Azərbaycan əsgərinin üzərinə ölkəmizin ərazi bütövlüyünü bərpa etmək üçün hər an döyüşə hazır olmaq kimi şərəfli və məsuliyyətli bir vəzifə düşür. Bu vəzifənin müvəffəqiyyətlə yerinə yetirilməsi isə əsgərlərimizdən yüksək döyüş və mənəvi-psixoloji hazırlıqlı olmağı tələb edir. Əsgərin öz xalqının və ölkəsinin tarixini bilməsi, bu gün üzərinə düşən vəzifə məsuliyyətini dərk etməsi onun mənəvi-psixoloji hazırlığında xüsusi əhəmiyyət kəsb edir. Görkəmli şairimiz Məhəmməd Hadinin XX əsrin əvvəllərində dediyi kimi, "əsgər olmaq bir şərəfdir". Erməni işğalçılarına qarşı labüd olan müharibə isə Azərbaycan əsgərinə ömürlük şərəf gətirəcəkdir. Buna bütün gənclərimiz hazır olmalıdır. Əgər oğul evdə ata-anaya, böyüyə hörmət, Vətənə məhəbbət hissi ilə böyüyüb yetişmişsə, o, Vətənə xidməti özünə borc biləcək, həvəslə hərbi xidmətə yola düşəcəkdir. O dərk edəcəkdir ki, hər bir gənc Vətənə öz borcunu ödəməlidir. Bu hazırlıq hərbi xidmətə çağırılmamışdan əvvəl, evdən, ailə tərbiyəsindən, məktəbdən başlayır, orduda isə təkmilləşdirilir və nəticədə əsgər Vətənin müdafiəçisi kimi şərəfli bir vətəndaşa çevrilir.

Ordu həyatı cəsarət, kişilik məktəbi adlandırılır. Burada yalnız döyüş meydanındakı, cəbhədəki, mərmi və bomba partlayışları şəraitindəki əsgərlər deyil, təlimdə olanlar, dinc şəraitdə xidməti vəzifələrini yerinə yetirən əsgərlər də, şübhəsiz, belə bir cəsarət, qəhrəmanlıq məktəbi keçmiş olurlar.

*Əsgərin fərdi-psixoloji xüsusiyyətləri və hərbi xidmətə sosial-psixoloji adaptasiya olunması*

Hər bir çətinliklərə dözmək, vicdan, namus, şərəf və fədakarlıq, qorxmazlıq, mətanət, döyüşkənlik, hərbi texnikanın dilini bilmək, qorxu hissinə üstün gəlmək və s. fərdi-psixoloji xüsusiyyətlər düşmənə qalib gəlməyin əsasını təşkil edir. Əsgərin kamilləşməsində əsas rol oynayan bu fərdi-psixoloji xüsusiyyətləri bir-bir nəzərdən keçirək.

1. **Cəsarət** - iradəliliklə üzvi surətdə bağlıdır. Cəsarət heç zaman əsgərin başını aşağı etməz, əksinə, onu daim qəhrəmanlığa sövq edər. Cəsarət qorxaqlığın əksidir və cəsarətli əsgər düşmənlə üz-üzə gələrsə, mütləq özünün düşməndən daha üstün olduğunu göstərməli olur. Nə qədər cəsarətli olursansa, qorxuya qalib gəlmiş olursan, qorxuya qalib gəlirsənsə, deməli, məğlubiyyəti bir o qədər uzaqlaşdırırsan. Buna görə də "cəsarətli adam bir dəfə ölür, qorxaq adam isə hər gün, hər saat" deyənlər haqlıdır.

2. **İgidlik** - cəsarətin təcəssümü və ifadə formalarından biridir. İgidlər heç də xüsusi fövqəladə bir qüvvəyə malik şəxslər deyil, adi adamlardır. Bu cəhətdən bütün əsgərlər döyüş zamanı igidlik göstərməyə eyni dərəcədə qadirdirlər. Sadəcə, onlar özlərini buna fərdi-psixoloji cəhətdən hazırlamalı, bütün qüvvələrini səfərbər etməlidirlər. Qorxu insanın psixologiyasına mənfi təsir edirsə, igidlik əksinə, əlavə enerji mənbəyi, yaradıcı və səfərbəredici qüvvə gətirir. İgidin əbədi yaşamaq ehtimalı çoxdur. İstər fiziki mənada, istərsə də məcazi. "İgid ölər, adı qalar, müxənnətin nəyi qalar" ifadəsi illər boyu sınaqdan çıxmışdır.

3. **Qəhrəmanlıq** - bir şücaət məktəbidir. Bu məktəbi keçmək üçün yalnız döyüş meydanlarında döyüşmək vacib deyil. Əsgər vəzifə başında olarkən, xidməti vəzifəsini yerinə yetirərkən də belə şücaət göstərə bilər. Tarixçilər əsgər cəsarətinin nümunəsi olaraq romalı bir əsgərin igidliyini və vəzifə sadiqliyini misal gətirirlər. Doqquz əsr əvvəl İtaliyada Vezuvi vulkanı püskürüb Pompey şəhərini yerləyeksan edərkən postda dayanan bir əsgər yerindən tərpənməmişdir. Bütün adamlar qaçdığı halda o, vəzifə başında dayanıb durmuşdur. Vulkanın atdığı daş parçaları onun başına tökülür, qaz onu boğurdu. O isə yerindən belə tərpənmirdi. Əsgər belə halda əlində silah durduğu yerdə həlak olmuşdur. Əlbəttə, adi bir əsgərin təbii fəlakətə, vulkana qarşı durması heç nəyi dəyişmirdi. Lakin əsgər vulkana qarşı gücsüz olsa da, öz xidməti vəzifəsini yerinə yetirdi. Bu gün də həmin əsgərin xatirəsi bütün italiyalıların qəlbində bir cəsurluq kimi əbədi yaşamaqdadır.

İkinci Dünya müharibəsi dövründə Həzi Aslanovun, Qafur Məmmədovun, İsrafil Məmmədovun, Hüseynbala Əliyevin, Gəray Əsədovun, Məlik Məhərrəmovun və başqalarının qəhrəmanlığı bu gün də nəsillərə nümunədir. 1991-1994-cü illərdə, işğalçı erməni silahlı birləşmələrinə qarşı döyüşlərdə onlarla azərbaycanlı bu qəhrəmanlıq nümunələrini təkrar etmişdi. Belə qəhrəmanlardan Rasim İbrahimovu, Əliyar Əliyevi, Şikar Şikarovu, Yusif Mirzəyevi, Asif Məhərrəmovu və başqalarını göstərmək olar.

Azərbaycanın Milli Qəhrəmanı Etibar Bəylər oğlu İsmayılovun da adı erməni işğalçılarına qarşı döyüşdə göstərdiyi şücaətə görə Azərbaycan Ordusunun salnaməsinə qızıl hərflərlə həkk olunmuşdur. Çavuş Etibar İsmayılov 1994-cü il yanvarın 4-də Xocavənd rayonunun Nərgiztəpə yüksəkliyini azad etmək üçün hücuma keçən qrupun tərkibində şəxsi igidlik göstərərək düşmən səngərinə birinci daxil olmuş və döyüşçülərimizin irəliləməsi üçün şərait yaratmışdır. İtirdiyi mövqeləri geri qaytarmaq üçün əlavə qüvvə toplayaraq əks-hücuma keçən düşmən tankının səngərlərimizə yaxınlaşdığını görən Etibar tankəleyhinə axırıncı qumbara ilə özünü tankın altına ataraq tankı və heyəti məhv etmiş, əsgər yoldaşlarının mühasirə təhlükəsindən qurtarmasına şərait yaratmışdır.

Azərbaycanın qorxmaz və cəsur övladlarından Milli Qəhrəmanlarımız Mübariz İbrahimovu, Çingiz Qurbanovu da xüsusi olaraq qeyd etmək lazımdır.

2016-cı ilin aprelində qoşunların təmas xəttində erməni işğalçılarının törətdikləri təxribatların qarşısının alınması məqsədilə aparılan döyüşlərdə qəhrəmanlıq və igidlik göstərərək şəhidlik zirvəsinə ucalan Milli Qəhrəmanlarımız Murad Mirzəyev və Samid İmanovun döyüş yolu gənclərimizin vətənpərvərlik tərbiyəsində müstəsna rola malikdir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Azərbaycan Ordusunun aprel qələbələrinin ildönümü ilə əlaqədar martın 31-də bir qrup hərbçilərlə keçirdiyi görüşdə demişdir: "Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun, bərpa edəcəkdir".

*Orduda döyüşçünün formalaşması*

Müasir ümumqoşun döyüşündə əsgərin rolu qat-qat artır. O öz Vətəninin müdafiəsi üçün şəxsi məsuliyyət daşıyır. Əsgəri vəzifəsini yerinə yetirərkən o öz qüvvəsini və həyatını əsirgəməməyə; komandirlərə (rəislərə) sözsüz tabe olmağa və onları döyüşdə qorumağa; hissənin Döyüş Bayrağını göz bəbəyi kimi qorumağa; döyüşdə Azərbaycan Respublikası qarşısında əsgəri vəzifəsini axıradək yerinə yetirməyə borcludur. Heç nə, o cümlədən ölüm təhlükəsi belə onu əsir düşməyə məcbur etməməlidir. Hərbi and və nizamnamələr hər əsgərdən tələb edir:

- Azərbaycan Respublikası Silahlı Qüvvələrinin döyüşçüsünün vəzifə borcunu dərindən dərk etsin, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına ciddi əməl etsin, Hərbi andın tələblərini yerinə yetirsin, sayıq olsun, Azərbaycanın mənafeyini vicdanla və inamla qorusun, bu işdə öz qüvvəsini, lazım gələrsə, həyatını da əsirgəməsin;
- hərbi işi vicdanla öyrənsin, komandirlərin (rəislərin) ona öyrətdiklərini möhkəm və səylə yadda saxlasın; öz vəzifələrini nümunəvi yerinə yetirsin; hərbi nizamnamələrin tələblərini möhkəm bilsin və vicdanla yerinə yetirsin;
- komandirlərin (rəislərin) əmr və göstərişlərini sözsüz, tez və vaxtında yerinə yetirsin; igid və intizamlı olsun; nalayiq hərəkətlər etməsin və yoldaşlarını da belə hərəkətlərdən çəkindirsin;
- dövlət sirrini qorusun; komandirlərə (rəislərə) və böyüklərə hörmət etsin, hərbi nəzakət, davranış və əsgəri salamvermə qaydalarına ciddi əməl etsin;
- silahını, döyüş texnikasını və digər texnikanı yaxşı bilsin; həmişə saz, təmiz və döyüşə hazır vəziyyətdə saxlasın.

Bunlardan əlavə, əsgərin döyüşdə vəzifələri belə müəyyənləşdirilir:

- taqımın, manqanın (heyətin) döyüş vəzifəsini və öz vəzifəsini bilsin;
- düşmən tanklarının, digər zirehli maşınların və tankəleyhinə vasitələrin döyüş imkanlarını, onların güclü və zəif cəhətlərini, xüsusilə də zəif yerlərini bilsin;
- daim müşahidə aparsın, düşməni vaxtında aşkar etsin və onun haqqında dərhal komandirə məlumat versin;
- hücumda cəsarət və qətiyyətlə, müdafiədə dəyanət və inadla hərəkət etsin;
- düşmən təyyarələrinə, vertolyotlarına və digər hava hədəflərinə atıcı silahdan atəş aça bilsin;
- döyüşdə komandirini qorusun, o, yaralandıqda, yaxud həlak olduqda bölməyə komandirliyi öz üzərinə götürsün;
- komandirin icazəsi olmadan döyüşdə öz yerini tərk etməsin.

Hərbi xidmət zamanı əsgərdə tərbiyə olunan mənəvi-döyüş keyfiyyətləri:

- düşmən üzərində qələbəyə sarsılmaz inam. Bu keyfiyyət Azərbaycan əsgərinin qarşısına qoyulmuş məqsədlərinin ədalətliliyinə dərin inama əsaslanır. Qələbəyə inam əsgərin döyüş qabiliyyətini və ustalığını fəallaşdırır, onun hərəkətlərini düşmənin darmadağın edilməsinə və qələbənin əldə edilməsinə yönəldir. Bu keyfiyyət təlim-məşq tapşırıqlarının və çalışmalarının gedişində, qarşıya çıxan bütün çətinlikləri dəf etməklə tərbiyə olunur;
- döyüş fəallığı. Döyüş şəraitində hər bir insan, kollektiv daim öz hərəkətlərininin səmərəliliyini artırmaq üçün üsullar axtarır. Bu isə gündəlik həyatla müqayisədə daha yüksək məsuliyyət tələb edir. Döyüş fəallığı döyüş və humanitar hazırlıq prosesində yaradılan, təşəbbüskarlıq, fəal hərəkətlər məqsədə çatmaq üçün daha səmərəli vasitələr axtarışını tələb edən mürəkkəb şəraitdə tərbiyə olunur;
- özünü idarəetmə və soyuqqanlılıq. Bu keyfiyyətin olmaması qorxaqlığın, özünüitirmənin, çaşqınlığın meydana çıxmasına səbəb ola bilər ki, bu da döyüş şəraitində çox acınacaqlı vəziyyətə gətirib çıxarır. Ona görə də gündəlik təlim prosesində yaradılan şəraitdən istifadə etməklə əsgər öz hisslərinə nəzarət etmək və hərəkətlərini qarşıya qoyulmuş tapşırığın yerinə yetirilməsinə tabe etmək bacarığına yiyələnməlidir;
- Hərbi anda, hərbi qulluqçu borcuna və şərəfinə sədaqət. Bu o deməkdir ki, hərbi qulluqçu döyüş və xidməti fəaliyyətində son damla qanına qədər konkret vəzifəsini yerinə yetirməyə hazırdır.

Azərbaycanın ərazi bütövlüyünün hələ bərpa edilmədiyi, torpaqlarımızın düşmən işğalında olduğu bir vaxtda Azərbaycan Ordusunun gündəlik həyatında mənəvi-psixoloji hazırlığın əhəmiyyəti gündən-günə artır. Hər bir hərbi qulluqçu xidmət etdiyi hərbi hissədə yüksək döyüş qabiliyyətinin saxlanılması, döyüş hazırlığının yüksəldilməsi, hissə və bölmənin tapşırıqlarının müvəffəqiyyətli həlli üçün öz vəzifə borclarını şüurlu dərk etməli və onları vicdanla yerinə yetirməlidir.

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

Tibb xidməti

# Gözünüz işıqlı olsun

*Əməliyyat olunmuş xəstənin sarğısı açılmalıdı. Başaçılmaz duyğular Könül həkimin ürəyini üzürdü - necə olacaq? İnanırdı. Hər halda narahatlıq da vardı. "Göz həkimi" filimindən bir epizod düşdü yadına. Bir qədər qətiyyətlə, "Aç gözlərini", - dedi. Onun ruha sakitlik verən səsinin təsirindən xəstə inamla, astaca gözlərini açdı...*



Dan yerinin sökülməsiylə bir xəstənin yenidən gözünün nuruna qovuşması arasında həmişə bir bağlılıq hiss etmişəm, bu işartıda bir yaşarlılıq görmüşəm.

Ətrafdakı mühitin dərinliyinin, yaxınlığının, ya uzaqlığının qavranılmasına görə gözlər həmişə sirli, müəmmalı olub. Ani bir baxış bəzən qədərsiz səsləri əvəz edir, bir ömrə bəs olan mətləbi anladır.

Silahlı Qüvvələrin Baş Klinik Hospitalının oftalmologiya bolməsinin ordinatoru, oftalmoloq-cərrah, tibb xidməti leytenantı Könül Rəhimovanın daxilindən gələn xeyirxahlıq, nəciblik öz əksini cöhrəsində tapıb. İllərdir insanların gözlərinin nurunun keşiyində dayanan bir həkimlə söhbətləşmək mənə də xoşdur.

Bakı şəhərində dünyaya göz açan Könül xanımın valideynləri həkim olub. Atası ehtiyatda olan tibb xidməti mayoru Həsən Bədəlov təcrübəli terapevtdir. Anası Flora xanım məşhur Musabəyovlar ailəsindəndir. Daim yaratmaq-yaşatmaq əzmiylə yaşayan Flora xanım Azərbaycan Dövlət Tibb Universitetinin oftalmologiya kafedrasının dosenti, tibb elmləri namizədiydi. Xeyirxah ruhlu bu nəcib insan yay istirahətində doğma rayonu Qəbələdə göz xəstəliklərindən əziyyət çəkənləri təmənnasız müayinə və müalicə edərmiş.

Ulu Öndərimizin ömürgün yoldaşı akademik Zərifə Əliyeva Könül xanımın ana nənəsi tibb elmləri doktoru, professor Umnisə Musabəyovanın sevimli tələbələrindən olub. Azərbaycan oftalmologiyasına uğurlar gətirən bu iki xanımın bir-birinə müəllim-tələbə kimi başlayan münasibəti ana-övlad mehrinə qədər yüksəlibmiş.

Dəfələrlə valideynlərinə yaxınlaşıb minnətdarlıq edən, sağlamlıqlarına görə onlara borclu olduqlarını deyən insanların gözlərindəki sözlərlə ifadə olunmayan sevgi və minnətdarlıq hissləri son dərəcə həssas qəlbli bir yeniyetmənin də peşə seçimində rol oynamaya bilməzdi. Belə bir mühitdə göz açıb böyüyən Könul xanım deyir ki, beş yaşım olanda qərarımı vermişdim: həkim olacam. Haqq dünyasına qovuşan anasının dilinin əzbəri olan Zərifə xanımın "Gərək həmişə özünü xəstənin yerinə qoyasan, gərək xəstə həmişə həkimin yanından xoş duyğularla getsin" sözləri Könül xanımın peşə amalıdır.

Aprel döyüşlərindən danışarkən gözlərinin anlatdığını, qəlbinin dediklərini və ruhunun pıçıltılarını da duyuram:

- Ordumuzla qürur duydum. Həmin günlərdə müalicə olunanlar öz sağlamlıqlarını düşünmədən döyüş meydanına qayıtmaq istəklərini deyirdilər.

Qaranlıq dünyada yaşayan küskün bir xəstənin sağlamlığına qayıtmasını özünə əsl xoşbəxtlik bilir. Bir daha işıqlı dünyanı, sevdiklərini görməmək qorxusu yaşayanların bu vahimədən xilas olunduqları vaxt keçirdikləri hissləri sözlə ifadə etmək mümkün deyil.

Həkim tibb elminin sirlərinə mükəmməl yiyələnməli, müasir tibbi cihazlarla işləməyi bacarmalı, ən əsası isə məsuliyyətli olmalıdır. Çünki müalicə və ya əməliyyatda kiçik bir səhv bir faciənin başlanğıcı ola bilər. Könül həkim də davamlı olaraq tək ölkə daxilində deyil, eləcə də İngiltərə, Türkiyə, Gürcüstan, İspaniya, Rusiya kimi ölkələrdə keçirilən konfranslarda iştirak edib. Ölkəmizdə və xarici mətbuatda onlarla məqaləsi çap olunub.

Asudə vaxtlarında rəsmlər çəkir, şeirlər yazır. Nədənsə, iç dünyasını hələlik insanlarla bölüşmək istəmir.

Könül xanım əksər xəstəsi olan hərbçilərə olduqca diqqətlidir. Vətənimizi qoruyanları daim səbrlə dinləyir, onların sağlamlığı keşiyində dayanmağı özünə müqəddəs borc bilir.

Həyatda möcüzələr varmı, yoxmu...

Dahi mütəfəkkir Nizami Gəncəvinin "Xeyir və Şər" əsərində qəddar Şərin qızmar səhrada bir içim suya görə Xeyrin təklif etdiyi daş-qaşı deyil, həyatının ən qiymətli ləlini - gözlərini tələb etməsini xatırlayıram. Görkəmli alman filosofu Fridrix Şiller deyirdi ki, "Ölmək - bu heç nədir, amma görüb, sonra kor olmaq sonsuz dərəcədə ağırdır". İnsanları bu əzabdan qurtarıb, gözəlliklərin var olduğu dünyaya qaytaran Könül xanımla "Gözünüz işıqlı olsun" deyib sağollaşıram.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**N.PƏNAHOVUNDUR**

# Vətənpərvər döyüşçü, peşəkar sürücü



Kiçik Qafqaz dağlarında yerləşən döyüş postundan qayıdırıq. Ətrafda gözəl mənzərə bizi müşayiət edir. Bir tərəfdə təzəcə yaşıllaşmağa başlayan təpələr, bir tərəfdə gur axan çay, bir tərəfdə tər çiçəklər açmış çəmənlər və hələ də üstü qarla örtülü zirvələr…

Yolboyu diqqətim sürücüdədir. Daşlı-kəsəkli yollarda maşını elə əminliklə və ustalıqla idarə edirdi ki, heç kimdə vahimə yaranmırdı. Yetərincə peşəkar, həm də yollara yaxşı bələd olan sürücü bizi hərbi hissəyə sağ-salamat çatdırdı…

Bacarıqlı sürücünü həm yaxından tanımaq, həm də ona minnətdarlıq etmək üçün hərbi hissənin avtomobil parkına üz tutdum. Uzun yoldan qayıdan sürücü maşına qulluq edirdi. Mühərrikə göz gəzdirir, yağını yoxlayır və digər detallarına göz gəzdirirdi. Kənardan onu diqqətlə izləyirəm. İdarə etdiyi UAZ-a qayğı ilə, elə sevgi ilə qulluq edir.

- İşin irəli, yorulmayasan!

Kiçik çavuş Ruslan Əzizov əl saxlayır.

- Çox sağ olun. Həqiqətən də mən bu işdən yorulmuram. Həm maşını idarə etməyi sevirəm, həm də ona qulluq etməyi. Ata yolunun davamçısıyam. Atam da hərbi qulluqçu olub. Ordu sıralarında gizir kimi xidmət edib. Hal-hazırda təqaüddədir. O hər zaman mənə ordumuzdan danışar, ordumuzla hər bir vətəndaşın qürur duyduğunu deyərdi. Atamın "bu formanı daşımaq məsuliyyətli, lakin bir o qədər də qürurvericidir, oğul. Hərbçi peşəsi bütün peşələrdən şərəflidir, Gələcəkdə sən də bu şərəfə nail olarsan" sözlərini heç unutmaram. Mən bu şərəfə nail olduğum üçün çox sevincliyəm. Maşın sürməyə hər zaman həvəsli olmuşam. Ona görə də sürücülüyü hər incəliyinə kimi öyrənmişəm. Yaxşı bələd olduğum bu peşəmlə Vətənə, ordumuza xidmət etdiyim üçün də ayrıca sevinirəm. Mən arzu edirəm ki, gələcəkdə oğlum da bu yolu davam elətdirsin".

"Texnika və maşınlar nə qədər müasir olsalar da, onları idarə etməklə yanaşı, texiniki xüsusiyyətlərinə yaxşı bələd olmalı, qəflətən bir nasazlıq baş verdikdə yerindəcə aradan qaldırmağı bacarmalısan", - deyir təcrübəli sürücü. Kiçik çavuş Əzizova görə, hərbi qulluqçu peşəsindən asılı olmayaraq ən əvvəl döyüşçü olmalı, torpaqlarımızı işğaldan azad etmək üçün döyüşə atılmağı düşünməlidir. Təcrübəli sürücü Ruslana xidmətində uğurlar arzulayıb sağollaşıram.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

# Xəbərlər: hadisələr, faktlar

## Şimali Koreya istənilən an növbəti nüvə sınağı keçirməyə hazır olduğunu bildirib



KXDR istənilən an növbəti nüvə sınağını keçirməyə hazırdır.

Bu barədə Şimali Koreyanın Xarici İşlər Nazirliyi bildirib.

"KXDR nüvə gücünü maksimuma çatdırmaq üçün fəaliyyətini ali rəhbərlik tərəfindən müəyyən olunan vaxt və yerdə konstruktiv və mütəmadi olaraq davam etdirəcək, - deyə bəyanatda bildirilir. - Əgər KXDR-də güclü nüvə silahı olmasaydı, ABŞ tərəddüd etmədən digər ölkələrə olduğu kimi, Koreyaya qarşı da təcavüz aktı həyata keçirərdi".

Xatırladaq ki, bundan əvvəl Şimali Koreyada 5 nüvə sınağı baş tutub.

## Rusiyadan Tailanda uçan təyyarədə 27 nəfər yaralanıb



Rusiyanın "Aeroflot" şirkətinə məxsus təyyarənin "hava çalası"na düşməsi nəticəsində 27 sərnişin yaralanıb. Moskvadan Banqkoka uçan təyyarədə yaralananlardan 24-ü Rusiya, 3-ü isə Tailand vətəndaşıdır.

Bu barədə TASS agentliyinə Rusiyanın Tailanddakı konsulluğunun əməkdaşı Vladimir Sosnov məlumat verib.

Konsulluq rəsmisi qeyd edib ki, yaralılardan bir neçəsinin üzərində cərrahiyyə əməliyyatı aparılıb. Zərərçəkənlərin heç birinin həyatı üçün təhlükə yoxdur.

## Mali-Burkina-Faso sərhədində 20-dən çox silahlı zərərsizləşdirilib



Fransalı hərbçilər Mali-Burkina-Faso sərhədində yerləşən meşədə 20-dən çox silahlını zərərsizləşdiriblər.

Malidə yerləşdirilmiş fransız hərbçilər aprelin 29-dan bölgədə əməliyyat keçirirdi. Silahlılar quru əməliyyatı və hava zərbələri nəticəsində zərərsizləşdirilib.

Qeyd edək ki, Malidə Fransa ordusunun 4 min hərbçisi xidmət edir.

## ABŞ-da qasırğa nəticəsində ölənlərin sayı 14 nəfərə çatıb



ABŞ-ın mərkəzi və cənub ştatlarında baş vermiş qasırğa nəticəsində ölənlərin sayı 14 nəfərə çatıb.

Əvvəlcə Texas ştatında 5 nəfərin öldüyü barədə məlumat yayılmışdı. Qasırğa ölkənin Texas, Arkanzas, Missuri və Missisipi ştatlarında insan tələfatına və dağıntılara səbəb olub.

## Dünyanın ən böyük amfibiya tipli təyyarəsi sınaq uçuşunu yerinə yetirib



Çində dünyanın ən böyük amfibiya tipli təyyarəsi sınaq uçuşunu uğurla yerinə yetirib.

İstehsalçı şirkətin yaydığı məlumata görə, 37 metr uzunluğunda, qalxma zamanı maksimal kütləsi 53,5 ton olan "AG600" təyyarəsi Çinin cənubundakı Cuxay şəhərində uğurlu sınaq uçuşu keçirib.

"AG600" xilasetmə işlərində, yanğına qarşı mübarizədə, su hövzələrində monitorinq və mühafizə işlərində istifadə olunacaq.

İstehsalçı şirkət bu tip 17 təyyarənin satışına dair sifariş qəbul edib.

**AZƏRTAC-ın materialları əsasında**

# "Şahin"lər paytaxt birinciliyində...

*Bu günlərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə "Şahin" hərbi-idman oyunlarının Bakı şəhəri üzrə birinciliyi keçirildi. Yarışda iştirak edəcək komandalar meydanda öz yerini tutmuşdu.*



Yarış rəsmi ritualların yerinə yetirilməsi ilə başlandı. Ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların ruhu bir dəqiqəlik sükutla yad edildi. Tədbir iştirakçıları Azərbaycan Respublikasının Dövlət himnini oxudular.

İlk olaraq çıxış edən C.Naxçıvanski adına Hərbi Liseyin rəisi vəzifəsini icra edən polkovnik Elman Namazov mərasim iştirakçılarını Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından salamlayaraq qeyd etdi ki, hər il respublika məktəbliləri arasında keçirilən belə mötəbər yarışlara ev sahibliyi etməkdən qürur duyuruq. "Bu gün "Şahin" hərbi-idman oyunlarının Bakı şəhəri üzrə birinciliyi keçirilir. İnanıram ki, budəfəki birincilik də maraqlı və gərgin keçəcək".

Gənclərin hərbi vətənpərvərlik, Vətənə, xalqa və dövlətə sədaqət ruhunda tərbiyə olunmasında, onların ordu sıralarına hazırlanmasında "Şahin" hərbi-idman oyunlarının əhəmiyyətindən danışan natiq ulu öndərimiz Heydər Əliyevin gənclərə tövsiyəsini də vurğuladı. "Gənclər təşkilatının, gənclərin ən əsas vəzifəsi hər bir gənci orduya hazırlaşdırmaqdan ibarət olmalıdır. Gənclərin orduda xidmət etmək üçün tərbiyələndirilməsi bizim əsas vəzifələrimizdən biri olmalıdır. Mən bunu gənclər təşkilatının əsas vəzifəsi hesab edirəm.

Siz Vətənimiz Azərbaycanın inkişafı və ordumuzun daha da güclənməsi naminə daim çalışmalı, oxumalı, həm fiziki, həm də mənəvi-psixoloji hazırlığınızı daim artırmalısınız. Ölkəmizin çiçəklənməsi, tərəqqisi və müdafiəsi naminə hər an mübarizəyə hazır olmalısınız!"

Gənclər və İdman Nazirliyinin sektor müdiri Əli Məmmədov, Respublika Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin nümayəndəsi polkovnik-leytenant Şaiq Məmmədov, Respublika Veteranlar Təşkilatının sədr müavini Cəlil Xəlilov və başqaları çıxış edərək məktəblilərə yarışda uğurlar arzuladılar.



"Şahin" hərbi-idman oyunlarının Bakı şəhəri üzrə birinciliyində 14 komanda iştirak edirdi.

Yarışın qaydalarına əsasən, komanda üzvləri 8 maneə zolağından keçməli idilər. Sıra hazırlığı mərhələsi başa çatdıqdan sonra məktəblilər avtomatın sökülüb-yığılması və tüfəngdən hədəfə atəş açılması məntəqəsinə yollandılar. Hərəkətlərindən hiss olunurdu ki, onlar yarışa ciddi hazırlaşıblar.

Komanda üzvləri atış çalışmasını yerinə yetirdikdən sonra kəndir vasitəsilə təhlükəli zolağın dəf edilməsi, kəndirin köməkliyi ilə hündürlüyə dırmanma və enmə, tel əngəlinin dəf edilməsi, çadırın qurulması, minalanmış sahəyə qumbara atılması, mülki müdafiə və başqa mərhələlərdən keçməyə başladılar.

Nəhayət, həyəcanlı dəqiqələr arxada qalır. Bir azdan qaliblər elan edilir. "Şahin" hərbi-idman oyunlarının Bakı şəhəri üzrə birinciliyinin qalibi adını Xətai rayonunun komandası qazanır. İkinci yerə Nizami, üçüncü yerə isə Yasamal məktəbliləri çıxırlar.

Sonda qalib komandaya yarışın kuboku təqdim olundu. İkinci və üçüncü yerə çıxmış komandaların üzvləri isə fəxri fərmanlarla və xatirə hədiyyələri ilə mükafatlandırıldılar.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına**
**Hərbi Lisey**

*Hərbi ənənələr, yeniliklər*

# Tu-160 raketdaşıyıcı bombardmançı

Rusiya aviasiyasının flaqmanı sayılan yüksək səsli Tu-160 raketdaşıyıcısı hərbi aviasiya tarixində ən böyük və ən ağır təyyarələrindən biridir.



Onun uçuş çəkisi 275 tondur. Rənginə və siluyetinə görə təyyarəçilər onu "Qu quşu" Tu-160 adlandırıblar. Bombardmançı iki barabanlı buraxıcı qurğuda 12 qanadlı X-55 raketlərilə silahlanıb. Raket orta yüksəklikdə saatda sürəti 920 kilometr olmaqla 100 kiloton həcmində termonüvə döyüş başlığını 2500 kilometrlik məsafəyə çatdırmağa qadirdir və bu da hədəfləri məhv etməyə zəmanət verir.

Tu-160 bombardmançısı X-55 raketlərindən başqa daha təkmilləşmiş idarəetmə sisteminə malik, hədəfi dəqiqliklə vura bilən X-101 raketlərini, həmçinin raket zərbəsindən sonra sağ qalan hədəfləri məhv etmək üçün "İkinci növbəli silah" qismində bombaları daşımağa qadirdir. Onun faydalı yükünün ümumi çəkisi 45 ton təşkil edir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

## "Planlaşdırma və Analiz Prosesi"nin qiymətləndirmə sənədi müzakirə olunub

Mayın 2-də Brüssel şəhərində NATO-nun mənzil-qərargahında, Tərəfdaşlıq və Kooperativ Təhlükəsizlik Komitəsində Azərbaycan Respublikasının 2017-ci il üzrə "Planlaşdırma və Analiz Prosesi"nin qiymətləndirmə sənədinin "NATO + Azərbaycan" formatında müzakirə iclası keçirilib.

İclasda Müdafiə Nazirliyinin nümayəndələri ilə yanaşı, müzakirə mövzularına müvafiq olaraq ölkəmizin digər aidiyyəti qurumlarının səlahiyyətli nümayəndələri də iştirak ediblər.

Görüşdə müdafiə sahəsində aparılan islahatlar, NATO və tərəfdaş ölkələrlə əməkdaşlıq, tərəfdaşlıq məqsəd və öhdəliklərin yerinə yetirilməsi, NATO-Azərbaycan Hərbi Təhsil və Təlim sahəsində birgə Fəaliyyət Planı, eləcə də Əməliyyat İmkanları Konsepsiyası çərçivəsində aparılan fəaliyyətlər, sülhməramlılarımızın Əfqanıstandakı "Qətiyyətli dəstək" qeyri-döyüş missiyasına verdiyi töhfə və digər məsələlər müzakirə olunub.

## Silahlı Qüvvələrə Yardım Fonduna 81 milyondan çox vəsait yığılıb

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna cari il mayın 1-dək 81 milyon 662 min 3.27 manat, 212 min 673.88 ABŞ dolları, 7136 avro və 5 min rubl vəsait yığılıb.

Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin məlumatına əsasən, Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan edilməyən digər daxilolmalardır.

Fondun əsas vəzifəsi Azərbaycan Respublikasının etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.

# "Ermənilər köhnəlmiş raketlərlə özlərinin pilotsuz uçuş aparatlarını vurublar"

*Ermənistan ordusunun sərəncamında olan "OSA" tipli texnika çoxdan köhnəlib və raketləri də artıq istismar müddətini başa vurub.*

Bunu düşmən tərəfinin "OSA" zenit-raket kompleksindən istifadə etməsi, ondan buraxılan raketin heç bir hədəfə dəymədən boş əraziyə düşməsi barədə xəbəri AZƏRTAC-a şərh edən ehtiyatda olan polkovnik Kamal Hüseynov deyib.

K.Hüseynov qeyd edib ki, Ermənistan tərəfi hələ bir neçə il əvvəl bu modifikasiyadan olan raketlərin modernləşdirilməsinə cəhd göstərmişdi. Lakin sonradan özlərinin də etiraf etdiklərinə görə maliyyə problemləri ucbatından onlar bu planı həyata keçirə bilmədilər.

"Raketin birinin boş əraziyə düşməsi bir tərəfə, peşəkarlıq və bacarıq səviyyələri "həmişə yüksək olan" erməni hərbçiləri digər raketlə özlərinin pilotsuz uçuş aparatlarını da məhv ediblər", - deyə ehtiyatda olan polkovnik bildirib.

Baş leytenant Rzayev Elçin Bəxtiyar oğluna 2009-cu ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Məhəmməd NƏSİRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 155
Nüsxə 4650